28 may Respublika Günüdür

Müstəqilliyimizi qorumaq borcumuzdur

prof. Elmira SÜLEYMANOVA,
Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)

Azərbaycan xalqının müstəqillik və dövlətçilik ənənələrinin möhkəmləndirilməsi uğrunda aparılan mübarizə tarixinin şərəfli, parlaq dövrlərindən biri 1918-1920-ci illəri əhatə edən və cəmi 23 ay yaşayan, Şərq dünyasında ilk demokratik respublika olan, demokratik dəyərləri özündə əks etdirən Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlıdır.

Bugünkü dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsi, ölkəmizin gələcək inkişaf perspektivlərinin müəyyən edilməsi və gənc nəslin dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması üçün həmin tarixə bir daha nəzər yetirmək yerinə düşər. Bu baxımdan tariximizə istinadən qeyd etmək olar ki, 1918-ci ilin martında ermənilər tərəfindən təşkil edilmiş qırğınlardan sonra Azərbaycanın demokratik qüvvələri istiqlaliyyət uğrunda açıq mücadilənin zəruriliyini önə çəkərək, milli hakimiyyət yaratmağın qurtuluş üçün yeganə yol olması qərarına gəldilər. Azərbaycan nümayəndələrinin təkidi ilə Zaqafqaziya seymi aprel ayının 9-da Zaqafqaziyanın suverenliyini elan etdi. Lakin daxili ziddiyyətlər Zaqafqaziya Federativ Demokratik Respublikasının tezliklə dağılmasına səbəb oldu. Gürcüstanın Zaqafqaziya Respublikasının tərkibindən çıxması bu qurumun süqutunun başlanğıcı oldu. 1918-ci il mayın 28-də Şərqdə ilk demokratik müsəlman ölkəsi olan Azərbaycan Demokratik Respublikası yaradıldı. Həmin gün Tiflis şəhərində Canişin sarayında Həsən bəy Ağayevin sədrliyi ilə Zaqafqaziya Seymində təmsil olunan 44 nümayəndədən 26 nəfərinin toplantısında Milli Şuranın 24 səslə qəbul etdiyi qərar və altı bənddən ibarət "İstiqlal Bəyannaməsi" Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığını bütün dünyaya bəyan etdi.

Mayın 30-da Azərbaycanın öz müstəqilliyini elan etməsi haqqında dünyanın əsas siyasi mərkəzlərinə radioteleqrafla məlumat verildi.

Azərbaycan hökuməti təzyiqlərə baxmayaraq, dövlət quruculuğu işini davam etdirir, parlamentin açılışına hazırlaşırdı. Parlament açılanadək onun funksiyasını Milli Şura yerinə yetirirdi. Azərbaycan Parlamenti 120 deputatdan ibarət olmalı, milli tərkibə uyğun olaraq, bunlardan 80 yer azərbaycanlılara verilməli idi. Rus, erməni, yəhudi, alman, gürcü və polyak icmaları, habelə həmkarlar ittifaqı şurası və neft sənayeçiləri ittifaqı üçün də yerlər nəzərdə tutulmuşdu. Ölkədə yaşayan bütün xalqların və hər iki cinsdən olan vətəndaşların seçki hüququ verildi. Azərbaycan həm də bütün Şərqdə qadınlara seçki hüququ verən ilk dövlət olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin xalqımız qarşısında ən böyük xidmətlərindən biri də budur ki, xalqın milli mənlik şüurunu özünə qaytarmış, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu sübuta yetirmiş, fundamental islahatların və tədbirlərin həyata keçirilməsinin təminatçısı olmuşdur.

Ümummilli lider Heydər Əliyev bu barədə demişdir: "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması bizim vaxtilə itirilmiş dövlətçiliyimizi bərpa etdi, xalqımızın tarixində ilk dəfə demokratik prinsiplər əsasında müstəqil Azərbaycan dövlətinin və hökumətinin yaranmasının əsasını qoydu. Şərq dünyasında ilk dəfə olaraq demokratik parlament quruculuğunu həyata keçirərək xalqımızın tarixində, dövlət müstəqilliyinin möhkəmləndirilməsində qətiyyətli addımlar atdı, ölkənin iqtisadi və siyasi inkişafında, mədəniyyət, maarif və xalq təhsili sahəsində, habelə bir çox sosial problemlərin həllində prinsipial əhəmiyyətə malik tədbirlər həyata keçirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, İstiqlal Bəyannaməsinin elan olunması böyük zəka, uzaqgörənlik, cəsarət, iradə, qəhrəmanlıq tələb edirdi. Bizim dəyərli siyasi xadimlərimiz həmin gün bu tarixi addımı atdılar.

"İstiqlal Bəyannaməsi" ilə həyata vəsiqə alan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın qədim dövlətçilik ənənələrini bərpa etdi, insan hüquqlarının və azadlıqlarının təmin olunmasına, irqi, milli, dini, sinfi və başqa bərabərsizliklərin ləğvinə və demokratiyaya yol açdı.

Azərbaycan Respublikası öz ərazisində tam dövlət hakimiyyətinə malik olub müstəqil xarici və daxili siyasət yeridirdi. Azərbaycan Respublikasının müstəqil dövlətə xas olan təsisatları—parlamenti, hökuməti, ordusu, maliyyə sistemi yaradılmışdı və fəaliyyət göstərirdi. Azərbaycan Respublikası bir çox xarici dövlətlər tərəfindən tanınmış və onlarla diplomatik münasibətlər yaratmışdı.

Müstəqil Azərbaycan Cümhuriyyətinin elan edilməsi mühüm tarixi hadisə, milli dövlətçiliyin dirçəlişi demək idi. Bu, Azərbaycan xalqının geniş kütlələrinin öz istiqlaliyyəti və azadlığı uğrunda birləşməsinin əsasını qoydu.

Fəaliyyət müddətində Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin müzakirəsinə 270-dən çox qanun layihəsi çıxarılmışdır ki, onlardan da 230-a yaxını təsdiq edilmişdir.

Bu Parlamentin bütövlükdə fəaliyyəti daha çox ölkənin sosial-iqtisadi və maliyyə problemlərinin həllinə, ölkənin siyasi və ərazi toxunulmazlığını təmin etməyə, vətəndaşların hüquqlarını qorumaq, dövlətin demokratik və hüquqi əsaslarını möhkəmləndirmək, Azərbaycan cümhuriyyətinin dünya dövlətləri tərəfindən tanınması üçün şərait yaratmaq, onun xarici ölkələr, ilk növbədə isə yaxın qonşuları ilə siyasi, iqtisadi və ticarət əlaqələrini yaratmağa yönəlmişdi. Eyni zamanda bu dövr ərzində vətəndaşlıq haqqında, ümumi hərbi mükəlləfiyyət haqqında, mətbuat haqqında, Milli Bankın təsisi haqqında, Bakı Dövlət Universitetinin yaradılması haqqında, gömrük və poçt-teleqraf xidmətinin təkmilləşdirilməsi haqqında, məhkəmə qanunvericiliyi haqqında və s. sənədlər də parlamentdə müzakirə olunaraq qəbul edilmişdi.

Lakin təəssüflər olsun ki, 1920-ci il aprel ayının 27-28-də suveren Azərbaycan Respublikasının ərazisi işğal olundu, qanuni seçilmiş hakimiyyət orqanları zorakılıqla devrildi və xalqımızın böyük qurbanlar bahasına qazandığı müstəqilliyə son qoyuldu.

Sonrakı 70 il ərzində Azərbaycan Respublikasına qarşı əslində müstəmləkəçilik siyasəti yeridilir, təbii ehtiyatlarımız amansızcasına istismar olunur, milli sərvətlərimiz talanır, xalqımız təqiblərə və kütləvi cəza tədbirlərinə məruz qalır, onun milli ləyaqəti tapdalanır, bütün bunlara baxmayaraq, öz dövlət müstəqilliyi naminə mübarizəsini davam etdirirdi.

"Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il avqustun 30-da qəbul etdiyi Bəyannamə bu mübarizənin yekunu olmuşdur.

Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə əsaslanaraq və "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" 1991-ci il 30 avqust tarixli Bəyannaməni rəhbər tutaraq, 1991-ci ilin 18 oktyabrında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktını qəbul etdi. Bununla da müstəqil respublikamızın dövlət, siyasi və iqtisadi quruluşunun əsasları təsis edildi.

Bu aktla hüquqi dövlət quruculuğu ideyasını həqiqətə çevirmək məqsədi qarşıya qoyulmuşdu. Belə ki, həmin aktın 12-ci maddəsində xalqımızın müstəqil, dünyəvi, demokratik, hüquqi və unitar dövlət yaratma yolunu tutması təsbit olunmuşdur.

1991-1993-cü illərdə ölkə idarəolunmaz vəziyyətdə idi. Anarxiya, xaos, özbaşınalığın hökm sürdüyü bir dövrdə müstəqilliyimiz yenə də təhlükə altına düşmüşdü. Erməni hərbi birləşmələrinin Azərbaycan ərazilərinə təcavüzü nəticəsində torpaqlarımız işğal olunurdu. Bu proseslər gənc müstəqil ölkənin sabitliyi üçün böyük təhlükə və çətin sınaq idi.

Azərbaycanın dövlət müqəddəratının həll olunduğu bir vaxtda - 1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə gələn Ulu öndər Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində müstəqilliyimiz çətin və mürəkkəb bir şəraitdə qorunub saxlanıla bildi.

1993-cü il ölkədə sabitlik və inkişaf ilinin, həm də insan hüquqları sahəsində dinamik inkişaf mərhələsinin başlanğıcı kimi tarixə düşdü.

Hüquqi islahatların təməli isə öz əksini Azərbaycan Respublikasının yeni Konstitusiyasında tapmışdır. Müstəqil Azərbaycanımızın ilk demokratik Konstitusiyası isə məhz ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə, demokratik tərzdə qəbul edilmişdir.

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi özündə təsbit edən Əsas Qanunumuzun 48 maddəsən ibarət üçüncü fəslinin bütün müddəaları insana, onun ləyaqətinə, hüquqlarına hörmət ruhunda yazılmış, insan hüquq və azadlıqları ən yüksək dəyər kimi təsbit olunmuşdur.

Təsadüfi deyil ki, Heydər Əliyevin müstəqil respublikamıza başçılıq etdiyi dövrlərdə ən çox diqqət yetirdiyi sahələrdən biri də insan hüquq və azadlıqlarının müdafiəsi və təmin edilməsi olmuşdur. Qısa müddət ərzində bu məqsədlə bir sıra mühüm tədbirlər həyata keçirilmiş, çoxsaylı fərman və sərəncamlar imzalanmaqla müvafiq qanunvericilik aktları qəbul olunmuşdur. Ölkə Prezidentinin 1996-cı il 21 fevral tarixli sərəncamını bu baxımdan xüsusilə qeyd etmək lazımdır. Həmin sərəncama uyğun olaraq, respublikamızda Hüquqi İslahat Komissiyası yaradılmış, ölkəmizdə həyata keçirilməsi planlaşdırılan hüquqi islahatlar sürətləndirilmişdir. Bu Komissiya tərəfindən beynəlxalq təcrübə əsasında həyatın bütün sahələrini əhatə edən və mühüm münasibətləri tənzimləyən normativ hüquqi aktlar hazırlanmışdır.

14 iyul 1998-ci ildə respublikamızda ilk dəfə olaraq Konstitusiya Məhkəməsi yaradılmışdır.

Azərbaycan dövlətçiliyinin inkişafında bələdiyyələr haqqında qanunun qəbul edilməsi və bələdiyyə institutunun fəaliyyətə başlaması da yeni hadisə idi. 1999-cu il dekabrın 12-də bələdiyyələrə ilk seçkilər keçirilmiş, 23 min şəxs bələdiyyə üzvü olmuşdur.

"Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" 6 avqust 1998-ci il tarixdə imzalanmış fərman KİV-in sərbəst inkişafı, cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən güclü vasitəyə çevrilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsində mühüm addım oldu. Bu fərmanla Nazirlər Kabineti yanında Mətbuatda və digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv edilmiş, hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli fərman və bütün informasiya yayımı üzərində nəzarətin tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli sərəncam qüvvədən düşmüş hesab edilmişdir.

BMT-nin 2000-ci ildə keçirilmiş Minilliyin sammitindən irəli gələn öhdəliklərin yerinə yetirilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədi ilə 2003-cü il 20 fevral tarixli fərmanla "2003-2005-ci illər üçün Azərbaycanda yoxsulluğun azalması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Bu sənədin icrası nəticəsində insanların sosial-iqtisadi hüquqlarının daha səmərəli müdafiəsi istiqamətində mühüm addımlar atılmışdır.

Konstitusiyamızda təsbit olunmuş insan və vətəndaş hüquqlarının daha effektiv təmin edilməsi məqsədilə ümummilli lider Heydər Əliyevin ölkə Prezidenti olaraq, 22 fevral 1998-ci il tarixdə imzaladığı fərmanında insan hüquqlarının müdafiəsinə dair Dövlət proqramının layihəsinin, insan hüquqları üzrə səlahiyyətli müvəkkil təsisatının yaradılmasına dair təkliflərin hazırlanması və digər məsələlər öz əksini tapmışdır.

Ulu öndərin bu fərmanından irəli gələn vəzifələri nəzərə alaraq, insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə imzaladığı 1998-ci il 18 iyun tarixli 832 saylı Sərəncamı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət Proqramında İnsan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkili təsisatının yaradılması və digər mühüm məsələlər nəzərdə tutulmuşdur.

Dövlət başçısının 1998-ci il 14 yanvar tarixli Fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması ölkədə qadınlara dair dövlət siyasətinin daha mütəşəkkil və məqsədyönlü şəkildə həyata keçirilməsini təmin etmişdir. Nəticədə qadın hüquqlarının müdafiəsi istiqamətində mühüm addımlar atılmışdır.

Bu siyasəti uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən 2006-cı ildə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması ölkədə qadın siyasətinin daha səmərəli həyata keçirilməsinə öz töhfəsini vermişdir.

28 dekabr 2001-ci il tarixdə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun qəbul edilməsi insan hüquqları sahəsində, həqiqətən, böyük dönüş nöqtəsi oldu. Qanunun konstitusiya statuslu olması dövlətin bu təsisatın fəaliyyətinə, ümumilikdə isə insan hüquqlarının müdafiəsi işinə verdiyi böyük önəmin göstəricisi kimi qiymətləndirilməlidir. Belə ki, Konstitusiya qanunları qanunvericilik sisteminin əsasını təşkil edir və ali qanun olan Konstitusiyanın ayrılmaz hissəsidir.

Belə bir nüfuzlu demokratik təsisatın yaradılmasında məqsəd ölkəmizin Konstitusiyasında və onun tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş, dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsinə, müvafiq Konstitusiya Qanunu ilə müəyyən edilmiş hallarda insan hüquqları pozuntularının qarşısının alınmasına nail olmaqdan ibarətdir.

Bütün dünyada Ombudsman təsisatlarının malik olduqları səlahiyyətləri və fəaliyyət prinsiplərini nəzərə alaraq qeyd etmək olar ki, Ombudsmanın vəzifəsi ictimai idarəetməni təkmilləşdirmək və dövlət tərəfindən görülən işləri qarşılıqlı etibar, hörmət, etik davranış əsasında işgüzar əməkdaşlıq tərzində inkişaf etdirmək, dövlət orqanlarının ictimaiyyətə açıqlığını mümkün qədər təmin etmək, bu qurumları vətəndaşlara daha çox yaxınlaşdırmaq, insan hüquqlarının pozulması, məmur özbaşınalığının və digər bu kimi halların qarşısını almaq, müstəqil ictimai nəzarəti həyata keçirmək, müvafiq icra hakimiyyəti orqanları, dövlət qurumları və vətəndaş cəmiyyəti institutları ilə, icmalarla aşkarlıq mühitində monitorinqlər aparmaq, vəziyyəti dəyərləndirmək və təkmilləşdirmək istiqamətində birgə səylər göstərməkdən ibarətdir.

Hazırda yeni redaksiyada qüvvədə olan Ombudsman haqqında Konstitusiya Qanununun üstünlüklərindən biri də ondan ibarətdir ki, bu qanun Müvəkkili həm də preventiv səlahiyyətlə təminatlandırır. Yəni, Müvəkkil nəinki Konstitusiyada və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş, dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquqları və azadlıqlarını bərpa edir, həmçinin qanuna edilən son əlavə və dəyişiklərə görə, insan hüquqları pozuntularının qarşısının alınması səlahiyyətlərinə də malikdir.

Qanuna edilən yeni əlavə və dəyişikliklərdən biri də işgəncə əleyhinə milli preventiv mexanizmin (MPM) fəaliyyəti ilə bağlıdır.

Qeyd olunmalıdır ki, 2 dekabr 2008-ci il tarixdə ölkəmiz tərəfindən ratifikasiya edilən "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə" Konvensiyanın Fakültativ Protokolunun icrasının təmin edilməsi barədə ölkə Prezidentinin 13 yanvar 2009-cu il tarixli sərəncamı ilə adı çəkilən sənəddə nəzərdə tutulmuş MPM funksiyalarını yerinə yetirən təsisat qismində Müvəkkil müəyyən edilmişdir. Qanunda Ombudsman Aparatında yaradılan Milli Preventiv Qrupun (MPQ) səlahiyyətləndirilməsi, bu qrupun üzvlərinə dair tələblər, onların toxunulmazlığının təminatları və digər əhəmiyyətli məsələlər təsbit edilmişdir. Qanuna görə, Müvəkkil işgəncənin və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısını almaq məqsədi ilə saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə müntəzəm surətdə və ya zəruri saydığı istənilən halda baş çəkir.

MPM qismində fəaliyyətə dair hesabatlar hər il Azərbaycan və ingilis dillərində hazırlanaraq çap olunur və həm ölkədaxili, həm də müvafiq beynəlxalq qurumlara təqdim olunur.

Qeyd olunmalıdır ki, BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyası ilə nəzərdə tutulmuş müstəqil monitorinq mexanizmi funksiyasının həyata keçirilməsi də Ombudsmana həvalə olunmuşdur və bu istiqamətdə müntəzəm olaraq tədbirlər görülməkdədir.

Azərbaycan Ombudsman təsisatı fəaliyyəti dövründə öz müsbət təcrübəsi və təklifləri ilə fərqlənmişdir. İstər dövlət qurumlarının və vəzifəli şəxslərin, istərsə də cəmiyyətin ayrı-ayrı fərdlərinin, o cümlədən hüququ pozulmuş şəxslərin insan hüquqları məfhumuna yanaşma tərzi dəyişmişdir. Müvəkkilin tövsiyəsi ilə ilk dəfə olaraq, bir çox dövlət qurumlarının strukturu təkmilləşmiş, insan hüquqları bölmələri yaradılmış, bu isə öz növbəsində, səmərəli idarəetmənin formalaşmasına gətirib çıxarmışdır.

Dövlətimizin ali məqsəd kimi qarşıya qoyduğu vətəndaşlara layiqli həyat səviyyəsinin təmin edilməsi vəzifəsinin yerinə yetirilməsi istiqamətində uğurla davam etdirilən sosial-iqtisadi siyasət əhalinin rifahının getdikcə yaxşılaşmasında özünü göstərməkdədir.

Azərbaycan Ombudsman təsisatının cəmiyyətə gətirdiyi yeniliklər rəğbətlə qarşılanır. Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı və Milli Fəaliyyət Proqramı üzrə təşəbbüslərimizdən biri də "ictimai dinləmələr"lə bağlıdır. Belə ki, qeyd olunan sənədlərin icrasının monitorinqi məqsədilə ölkənin hər bir şəhər və rayonunda millət vəkillərinin, yerli icra hakimiyyəti, məhkəmə və digər hüquq-mühafizə orqanlarının, bələdiyyələrin, yerli QHT-lərin, KİV-lərin, o cümlədən milli azlıqların yerli icmalarının nümayəndələrinin iştirakı ilə ictimai dinləmələr keçirilir. Ölkəmiz üçün yenilik olan, aşkarlıq və kütləvilik prinsipinə əsaslanan ictimai dinləmələr iştirakçıların böyük fəallığı şəraitində keçir və böyük marağa səbəb olur. Bu ictimai dinləmələr həmin sənədlərin səmərəli icrasına, həmçinin insanların öz fikir və təkliflərini sərbəst surətdə ifadə etməsinə, bütün hüquqların hər bir kəsə heç bir ayrı-seçkiliyə yol verilmədən məxsusluğu fikrinin möhkəmlənməsinə, bütövlükdə demokratik, layiqli idarəetmənin təkmilləşməsinə təkan verir.

Ölkə Prezidentinin müvafiq Sərəncamı ilə Müvəkkilin də təklifi nəzərə alınmaqla 18 iyun tarixi Azərbaycanda İnsan Hüquqları Günü kimi təsdiq olunmuşdur. Buna uyğun olaraq, hər il 18 may-18 iyun tarixində "İnsan hüquqları aylığı" elan olunur və aylıq çərçivəsində bütün ölkəni əhatə etməklə həm dövlət qurumları, həm də vətəndaş cəmiyyəti institutları tərəfindən silsilə tədbirlər həyata keçirilir. Həmin aylıq çərçivəsində keçirilən tədbirlər ölkəmizdə insan hüquqlarının təbliğinə bu sahədə vəziyyətin dəyərləndirilməsinə, insanların hüquq düşüncəsinin, hüquq mədəniyyətinin inkişaf etdirilməsinə, əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsinə və onların problemlərinin həllinə öz töhfəsini verir.

Dövlət qurumları, QHT-lər, vətəndaş cəmiyyəti ilə səmərəli əməkdaşlıq əlaqələri qurulmasına diqqət yetirilmiş, insan hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşan dövlət orqanları təcrübəsində ilk dəfə olaraq Ombudsmanın yanında müstəqil Ekspertlər Şurası yaradılmışdır. Əhalinin müxtəlif təbəqələrinin hüquqlarının daha etibarlı təmin edilməsi məqsədilə Ombudsmanın ayrı-ayrı sahələr (qadın, uşaq, ahıl, əlilliyi olan, habelə qaçqın və məcburi köçkünlər, məhkumlar, hərbi qulluqçular və b.) üzrə ixtisaslaşmış müşavirləri fəaliyyət göstərir.

Ombudsman təsisatının cəmiyyətə gətirdiyi digər mühüm yenilik xarici əlaqələr sahəsində fəaliyyətlə bağlıdır. Buraya universal və regional beynəlxalq təşkilatlarla (o cümlədən BMT-nin ixtisaslaşdırılmış təsisatları ilə) müntəzəm olaraq əməkdaşlıq və qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, insan hüquqlarının təmin olunması sahəsində birgə layihələrin həyata keçirilməsi, Azərbaycan Respublikasının BMT-nin saziş komitələrinə təqdim olunan hesabatlarının hazırlanmasında iştirak etmək, əlavə və alternativ məruzələrin hazırlanması və aidiyyəti üzrə təqdim olunmasını göstərmək olar. Bir sıra nüfuzlu təşkilatlara (Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutları, Asiya Ombudsmanlar Assosiasiyası, Avropa Uşaq Hüquqları Ombudsmanları Şəbəkəsi (ENOC) və s.) üzv olmaq, BMT-nin İnsan Hüquqları Şurası ilə əməkdaşlıq, Şuranın sessiyalarında iştirak etmək, xüsusi bəyanatlarla çıxışlar, bu bəyanatların rəsmi sənəd kimi qeydiyyatdan keçirilməsi və adı çəkilən nüfuzlu qurumun saytlarında yerləşdirilməsi bu qəbildəndir.

Hər il artıq bir ənənə olaraq, Ombudsmanların Beynəlxalq Bakı Konfransları keçirilir. Bu günədək təşkil olunmuş 12 konfransda 60-dan çox ölkənin ombudsmanları və insan hüquqları sahəsində tanınmış ekspertlər iştirak etmiş, bu toplantılar çərçivəsində bəyannamələr qəbul edilmişdir. Müvəkkilin bu günədək keçirdiyi həmin konfranslardan səkkizi YUNESKO-nun dəstəyi ilə təşkil olunmuşdur. Həmin mötəbər toplantılarda "İnsan hüquqlarının təşviqi və müdafiəsi sahəsində ombudsmanların imkanlarının inkişaf etdirilməsi", "Qloballaşan dünyada insan hüquqları", "Bioetika, insan hüquqları və yeni texnologiyalar: reproduktiv sağlamlığın və ailə planlaşmasının hüquqi və etik aspektləri", "İnsan hüquqları və ətraf mühit: iqlim dəyişikliyinin hüquqi və etik aspektləri", "Milli azlıqların və miqrantların mədəni hüquqları: hüquqi aspektlər və implementasiya", "Davamlı inkişaf strategiyalarının yeni mexanizmlərinin insan hüquqlarının müdafiəsində və təbliğində rolu", "Qadın hüquqlarının təmin edilməsində milli insan hüquqları təsisatlarının rolu" və s. mövzular müzakirə edilmiş təcrübə mübadiləsi aparılmış, Azərbaycan həqiqətləri dünyaya çatdırılmışdır.

Fəaliyyəti dövrü ərzində Ombudsman Azərbaycanın prioritet məsələləri ilə bağlı 59 bəyanat vermişdir. 1990-cı il 20 Yanvar faciəsinin, Xocalı soyqırımının ildönümləri, 31 mart - Azərbaycanlıların Soyqırımı Günü və s. ilə əlaqədar bəyanatlar BMT-nin Baş Katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, Avropa Komissiyasına, Avropa Şurasına, ATƏT-ə, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, Beynəlxalq Sülh Bürosuna, Universal Sülh Federasiyasına, müxtəlif ölkələrin ombudsmanlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına ünvanlanmışdır.

Müvəkkil dünya birliyinə və mötəbər beynəlxalq qurumlara müraciət edərək, ikili standartlara yol vermədən haqlı mövqeyimizi dəstəkləməyə çağırmış, Azərbaycana qarşı aparılan uzunmüddətli erməni təcavüzünə, insan hüquqlarının kütləvi şəkildə pozulmasına son qoyulmasını tələb etmiş, ədalətin tezliklə öz yerini tapacağına, cinayətkarların cəzasız qalmayacağına, uzun müddət davam edən bu münaqişənin sülh və danışıqlar yolu ilə aradan qaldırılmasına kömək göstərləcəyinə, yüz minlərlə qaçqın və məcburi köçkün soydaşımızın pozulmuş hüquqlarının bərpa ediləcəyinə, əsir və girovların azad olunacağına əminliyini ifadə etmişdir.

İştirak etdiyimiz beynəlxalq proqramları da yeniliklər sırasında qeyd etmək lazımdır. Beynəlxalq əlaqələrimiz sırasında Avropa Birliyi ilə münasibətlər xüsusi önəm daşıyır. Bu əməkdaşlıq əlaqələri kontekstində Avropa Birliyinin Tvinninq və Şərq tərəfdaşlığı layihələrində fəal iştirak etmişik. Bununla yanaşı, Avropa Birliyinin TAİEX proqramı çərçivəsində regionlarda "Ombudsmanın Regional Mərkəzlərinin imkanlarının artırılması" mövzusunda beynəlxalq treninq-seminar keçirilmişdir. Həmin proqram üzrə tərəfdaşımız Almaniya İnsan Hüquqları İnstitutu olmuşdur. Cənubi Qafqazda ilk dəfə olaraq Azərbaycanda tətbiq edilmiş "Twinning Light" layihəsi uğurla həyata keçirilmiş, faydalı təcrübə mübadiləsi aparılmışdır. Bu ildən isə Tvinninq üzrə iki illik yeni layihənin icrasına başlayırıq.

Ombudsman Avropa Birliyinin Şərq Tərəfdaşlığı təşəbbüsündə də fəal iştirak etmiş və burada tərəfdaşımız Polşa Ombudsman institutu olmuşdur. Bu layihə çərçivəsində Azərbaycan Ombudsman Aparatının və Polşa Ombudsman təsisatının əməkdaşlarının iştirakı ilə Varşavada, habelə Bakıda birgə görüşlər keçirilmiş və həmin görüşlərdə işgəncələrə qarşı mübarizə üzrə milli preventiv mexanizmlərin fəaliyyəti, ayrı-seçkiliklə mübarizə, cinayət qurbanlarına hüquqi, psixoloji, təşkilati və maliyyə dəstəyinin göstərilməsi, insan hüquqlarının müdafiəsi işində yeni texnologiyalardan istifadə imkanları mövzularında müzakirələr aparılmış, bununla bağlı gələcək əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur.

Müvəkkilin Milli İnsan Hüquqları İnstitutu kimi fəaliyyəti də uğurludur. 27 oktyabr 2006-cı il tarixdə Milli İnsan Hüquqları Təsisatlarının Beynəlxalq Əlaqələndirmə Komitəsi (BƏK) tərəfindən Azərbaycan Ombudsman Təsisatı "A" statuslu Milli İnsan Hüquqları İnstitutu kimi tanınmışdır. Bu status Milli insan hüquqları təsisatlarının müstəqil fəaliyyətinin Paris Prinsiplərinə uyğun olaraq müəyyən edilir və Azərbaycan ombudsman təsisatının beynəlxalq əlaqələrinin daha da genişləndirilməsinə, ona BMT-nin İnsan Hüquqları Şurasının fəaliyyətində müstəqil olaraq iştirak etmək, bəyanatlar və tövsiyələr vermək, BMT-nin saziş qurumlarına təqdim edilməsi üçün dövlət hesabatlarının hazırlanmasında, UDİ prosesində iştirak etmək, həmçinin paralel və alternativ hesabatlar hazırlamaq və sazişlərin həyata keçirilməsinin monitorinqini aparmaq səlahiyyətləri verir. Həmin hesabatların bəziləri beynəlxalq qurumlar tərəfindən müsbət təcrübə kimi qiymətləndirilmişdir.

2012-ci ildə Müvəkkil təsisatı BƏK tərəfindən "A statusu" ilə yenidən akkreditasiya olunmuş və onun Paris Prinsiplərinə uyğun müstəqil fəaliyyət göstərdiyi BMT səviyyəsində bir daha təsdiqlənmişdir.

Müvəkkil müntəzəm olaraq BƏK-in illik sessiyalarında iştirak edir və insan hüquqlarının müxtəlif istiqamətlərini əhatə edən bəyanatlarla çıxış edir (məsələn, qaçqın və məcburi köçkünlərin, əlillərin hüquqlarının müdafiəsi, ayrı-seçkiliyə məruz qalmamaq və etnik təmizləmə, Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılmasına dair Konvensiyanın 65-ci ildönümünə, uşaqlar hərbi münaqişələr zamanı, habelə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 60 illiyi ilə bağlı ombudsmanın gördüyü işlərə dair və s.). Həmin bəyanatlar BMT-nin rəsmi sənədləri kimi qeydiyyata alınmış, həmin qurumların saytlarında yerləşdirilmiş və üzv dövlətlər arasında yayımlanmışdır.

Bu bir həqiqətdir ki, dövlətin siyasi iradəsi, dəstəyi olmasa heç bir ölkədə ombudsman səmərəli fəaliyyət göstərə bilməz.

Ötən dövr ərzində Azərbaycan daha da inkişaf etmiş, yeni-yeni regional proqramlar, ölkəmizin hərtərəfli, daha dinamik inkişafı naminə islahatlar həyata keçirilmiş və bu proses sürətlə davam etməkdədir. İnsan hüquqlarının inkişafına və təkmilləşdirilməsinə böyük diqqət yetirilir, ölkə Prezidentinin yürütdüyü siyasət məhz insan hüquq və azadlıqlarının səmərəli təminine xidmət edir.

Respublikamızın ildən-ilə daha yüksək templə iqtisadi inkişafı qarşıya qoyulan ən mürəkkəb və çətin vəzifələrin öhdəsindən gəlməyə imkan yaradır.

Hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin yaradılması, bazar iqtisadiyyatının bərqərar edilməsi məqsədi ilə genişmiqyaslı islahatlar davam etdirilir. İnsan hüquqları və azadlıqları etibarlı surətdə təmin edilir, ölkəmizin Avropa xalqları ailəsində nüfuzu ilbəil artır.

İnsan hüquqları ilə bağlı strategiyalar, konsepsiyalar, dövlət proqramları, fəaliyyət və tədbirlər planları təsdiq və təbliğ olunmuşdur.

Hazırda ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu mərhələnin əsas hədəfi insan hüquqlarının daha səmərəli təmini, əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyədə gerçəkləşdirilməsi, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində nailiyyətlərin əldə olunmasıdır.

Dövlət başçısının 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası mühüm əhəmiyyət kəsb edir. Bu Konsepsiyada müəyyən edilmiş hədəflər ölkəmizin davamlı inkişafına, əhalinin rifah halının daha da yaxşılaşdırılmasına və insan hüquqlarının səmərəli təminine yönəldilmişdir. Sözügedən konsepsiyada bilavasitə və ya dolayısı ilə insan hüquqları ilə bağlı olan bir sıra dövlət proqramları və planlarının, strategiyalarının hazırlanaraq təsdiq edilməsi nəzərdə tutulmuşdur.

BMT Minilliyin İnkişaf Məqsədlərinin müddətinin başa ç